| | | |
|---|---|---|
| **Ümumi məlumat** | **Fənnin adı, kodu və kreditlərin sayı** | MATH512, Riyaziyyatın tədrisi metodikası, 6 AKTS |
| | **Departament** | Riyaziyyat |
| | **Proqram (bakalavr, magistr)** | Bakalavr |
| | **Tədris semestri** | 2025/2026-cı tədris ilinin payız semestri |
| | **Fənni tədris edən müəllim (lər)** | Dosent, pedaqoji elmlər üzrə fəlsəfə doktoru Samirə Cəmil-Cahid qızı Tağıyeva |
| | **E-mail:** | Sama-qasa@mail.ru |
| | **Telefon:** | |
| | **Mühazirə otağı/Cədvəl** | Neftçilər Şənbə günü saat 8:30 – 11:40 |
| | **Məsləhət saatları** | Tələbələrlə razılaşdırılan vaxtlarda |
| **Prerekvizitlər** | EDU 101, EDU 460 | |
| **Tədris dili** | Azərbaycan | |
| **Fənnin növü (məcburi, seçmə)** | Məcburi | |
| **Dərsliklər və əlavə ədəbiyyat** | 1. V-XI siniflərin riyaziyyat fənninin tədris proramı<br>2. V-XI siniflərin riyaziyyat dərslikləri.<br>3. Adıgözəlov A.S. Orta məktəbdə riyaziyyatın tədrisi metodikası. Bakı, 2006.<br>4. B.Ö.Tahirov, F.M.Namazov,S.N.Əfəndi, E.A.Qasımov, Q.Z.Abdullayeva. Riyaziyyatın tədrisi üsulları. Bakı, 2007<br>5. AZƏRBAYCAN RESPUBLİKASININ ÜMUMTƏHSİL MƏKTƏBLƏRİ ÜÇÜN RİYAZİYYAT FƏNNİ ÜZRƏ TƏHSİL PROQRAMI (KURİKULUMU) (I-XI SİNİFLƏR), Bakı, 2013<br>6. Z.Kazımov Tip məsələlərin həlli metodikası, Bakı,2012<br><br>**Əlavə:**<br><br>1. Adıgözəlov A.S. Rzayev M.T. Elementar cəbr. Bakı, 2012<br>2. Məmmədov Ə. Elementar riyaziyyat. Bakı, 2012 | |
| **Kursun təsviri** | Riyaziyyatın tədrisi metodikası fənni tələbələri (gələcək müəllimləri) orta ümumtəhsil məktəblərində riyaziyyatın tədrisinə hazırlamaq məqsədi daşıyır. Həmin məsələnin həlli üçün “Riyaziyyatın tədrisi metodikası” fənni aşağıdakı vəzifələrin yerinə yetrilməsini nəzərdə tutur:<br>1. Ümumi orta təhsildə riyaziyyatın əhəmiyyətini, fənni mənimsəməyin psixoloji, pedaqoji əsaslarını, öyrənilən materialın tətbiq sahələrini açıb göstərməli;<br>2. Gələcək müəllimlərdə riyaziyyatın tədrisinə yaradıcı yanaşmağı tərbiyə etmək, təlim prosesini müstəğil təhlil edə bilmək, metodik problemləri tətbiq etmək bacarığı və vərdişləri formalaşdırılmalı, öz işinin təkmilləşdirilməsi yollarının elmi axtarışına səylərin inkişafı üçün əlverişli şərait yaratmalı;<br>3. Tələbələrdə tədris və tərbiyə işlərinin yüksək səviyyədə aparılmasının əsas praktik bacarığını təkmilləşdirməlidir. | |
| **Kursun məqsədləri** | “Riyaziyyatın tədrisi metodikası” fənnindən mühazirə, praktik (seminar) məşğələlərin aparılması nəzərdə tutulub. Mövzularla əlaqədar həm mühazirə, | |

| | | | |
|---|---|---|---|
| | həm də seminar məşğələlərində fəal və interaktiv metodlardan da istifadə etməklə tələbələrə çatdırmaqdır. | | |
| **Tədrisin (öyrənmənin) nəticələri** | Riyaziyyatın tədrisi metodikasının əsas məqsədi pedaqoji tədqiqatlara əsaslanaraq qabaqcıl iş təcrübələrinin tələbələrə çatdırılmasıdır.<br>Tələbə:<br>• Məsələ və misalların həll metodlarının düzgün tətbiqini bacaracaq,<br>• Şagirdlərin rast gəldikləri çətinliklərin aradan qaldırılması yollarını, dərslərin təşkili, müşahidəsi, təhlili, sinifdənkənar işlərin təşkili və s. məsələlər araşdırmağı bacaracaq,<br>• Azərbaycanda ümumtəhsil məktəblərində riyaziyyat təhsilinin müasir strukturunu mənimsəyəcək,<br>• Riyaziyyat dərslərində interaktiv metodları tətbiq etməyi bacaracaq;<br>• Təlim məqsədlərini həyata keçirmək üçün məqsədəuyğun üsul və formalardan istifadə etməyi bacaracaq,<br>• Fəal təlim mühiti təmin edərək müəllim-şagird (həmçinin, şagird-şagird) əməkdaşlığını quraraq müstəqil öyrənmə mühitini təşkil etməyi bacaracaq,<br>• Riyaziyyat dərslərinin tədrisi zamanı fəndaxili və fənlərarası inteqrasiya və sinifdənxaric işlərin təşkilini tətbiq etməyi bacaracaq,<br>• Şagird nailiyyətlərinin qiymətləndirilmə vasitələrindən istifadəni bacaracaq. | | |
| **Tədris metodları** | Məşğələ | + | |
| | Qrup müzakirəsi | + | |
| | Praktiki tapşırıqlar | + | |
| | Praktiki məsələnin təhlili | + | |
| **Qiymətləndirmə** | **Komponentləri** | **Tarix/son müddət** | **Faiz (%)** |
| | **Praktiki dərs (Təqdimat əsasında)** | | 10 (2 dərs hər biri 5 bal) |
| | **Fəallılıq** | | 5 |
| | **Yoxlama (quiz)** | | 10 (2 quiz) |
| | **Davamiyyət** | | 5 |
| | **Aralıq imtahanı** | | 30 |
| | **Final imtahanı** | | 40 |
| | **Yekun** | | 100 |
| **Qaydalar (Tədris siyasəti və davranış)** | **Praktiki dərs**<br>Tələbə öz istəyi ilə ümumtəhsil məktəblərinin V-XI siniflərini əhatə edən riyaziyyat fənni üzrə mövzulardan birini seçərək interaktiv təlim metodlarından istifadə edərək hazırlamalıdır. Praktiki dərsin təqdimatında tələbə müəllim funksiyasında çıxış etməlidir, digər tələbələr şagird funksiyasında çıxış edərək dərsi təqdim edən tələbə ilə diskussiyalar aparmalıdırlar. **Burada məqsəd gələcəyin müəllimi olan tələbənin dərs hazırlama və təqdimetmə bacarığının inkişaf etdirilməsidir.** | | |

| | |
|---|---|
| | **Müddəti:** Oktyabr – dekabr ayları ərzində praktiki dərs təqdimatları təhvil verilməlidir. **Sonuncu dərs həftəsindən sonra təqdimat etmək üçün əlavə vaxt verilmir.** Hər bir tələbəyə təqdimat üçün maksimum 30 dəqiqə vaxt ayrılır. Hər həftə maksimum 3 tələbənin təqdimatı üçün vaxt ayrılır. Oktyabr ayından etibarən təqdimetmə üçün günlər cədvəl şəklində salınacaqdır. Praktik dərs təqdimatında əsasən interaktiv dərsin 7 mərhələsinin təşkili, müəllim-şagird əməkdaşlığının təmin olunası əsas götürüləcəkdir.<br>**Qeyd:** Prezentasiya Power Point platformasından istifadə etməklə hazırlanmalıdır. Tələbə öz təqdimatını dərsdə təqdim etməzdən ən azı 2 gün öncə müəllimə elektron poçt ünvanına göndərməlidir. Plagiat və köçürmə olan işlər qəbul edilməyəcəkdir.<br>**Yoxlama (quiz)**<br>Birinci yoxlama noyabr ayının ilk həftəsi aralıq imtahanından öncə (5 bal), ikincisi isə dekabrın üçüncü həftəsi final imtahanından öncə (5 bal) nəzərdə tutulur. Hər iki yoxlamada 2 ballıq 5 açıq sual (2 nəzəri və 3 praktik) veriləcəkdir. Hər bir yoxlamaya 90 dəqiqə vaxt ayrılır. Köçürmə halında yoxlama işi ləğv edilir. **Yoxlamanın məqsədi keçilən mövzular üzrə biliklərin möhkəmləndirilməsi, tələbələrin imtahanda açıq sualların cavablandırılmasına hazırlıqlı olmasına kömək etməkdir. Yoxlamada iştirak etməyən tələbə üçün yenidən yoxlama keçirilmir.**<br>**İstisna:** Fakültə dekanlığına tələbə öncədən üzrlü səbəbdən (ailəvi vəziyyət və səhhətlə bağlı) yoxlama işində iştirak edə bilməyəcəyi haqda məlumat vermişsə, və ya sonra bununla əlaqədar hər hansı bir sənəd (ərizə və ya arayış) təqdim edibsə, yalnız bu halda tələbəyə yenidən yoxlama keçirilə bilər.<br>**Davamiyyət**<br>Tələbələrin bütün dərslərdə iştirakı vacibdir. Dərsə 10 dəqiqə gecikən tələbəyə qayib yazılır. Buna baxmayaraq, tələbə dərs saatına buraxılır. Tələbələr müəyyən səbəblərdən (xəstəlik, ailə vəziyyəti və s.) dərslərin buraxılması haqqında məlumatı fakültə dekanlığına təqdim etməlidirlər. 25%-dən artıq dərs buraxan tələbələr imtahana buraxılmır.<br>**İmtahanlar**<br>Aralıq imtahanı noyabr ayında tədris olunan mövzular üzrə, final imtahanı dekabr ayında tədris olunan mövzular əsasında keçiriləcəkdir. Tələbənin imtahanda iştirakı və ya imtahanın buraxılması ilə bağlı bütün məsələlər fakültə rəhbərliyi tərəfindən həll olunur.<br>**Fənni bitirmək qaydası**<br>Univesitetin qaydalarına müvafiq olaraq kursu bitirmək üçün ümumi müvəffəqiyyət faizi 60% və daha yuxarı hesab edilir. Kəsri olan tələbə bu fənni növbəti semestr və ya növbəti il təkrarən götürə bilər.<br>**İmtahan qaydalarının pozuntuları**<br>Aralıq və yekun imtahanları vaxtı tələbə tərəfindən imtahanın gedişini pozmaq və köçürmələr qadağandır. Bu qaydaya əməl etməyən tələbənin imtahan işi ləğv olunur və tələbə 0 (sıfır) qiymət ilə imtahandan kənarlaşdırılır. |

| | |
|---|---|
| | **Tələbənin davranış qaydaları**<br>Dərs zamanı dərs prosesini pozmağa və ya qeyri-etik hərəkətlər etməyə, həmçinin tələbələrin icazəsiz müzakirələrinə və mobil telefondan istifadəsinə icazə verilmir. |

| **Cədvəl (dəyişdirilə bilər)** | | | |
|---|---|---|---|
| **Həftə** | **Tarix** | **Fənnin mövzuları** | **Dərslik/ Tapşırıqlar** |
| 1 | 20.09.2025 | Riyaziyyat tədrisi metodikasının bir elm kimi: Riyaziyyatın tədrisi metodikasının məqsəd və vəzifələri | 4, səh. 128 |
| 2 | 20.09.2025 | Riyaziyyat tədrisi metodikasının başqa elmlərlə əlaqəsi | 4, səh. 100 |
| 3 | 27.09.2025 | Riyaziyyat kurikulumu və onun xüsusiyyətləri: Fənnin əhəmiyyəti, məqsəd və vəzifələri | 7, səh.4-7 |
| 4 | 27.09.2025 | Riyaziyyat kurikulumu və onun xüsusiyyətləri: V – XI siniflərin riyaziyyat kursunun məzmunu və quruluşu | 7, səh.7-15 |
| 5 | 4.10.2025 | Riyaziyyat təlimi prosesində qiymətləndirmə | 4,səh.143 |
| 6 | 4.10.2025 | Riyaziyyat təlimində didaktik prinsiplər | 4, səh.157 |
| 7 | 11.10.2025 | Riyaziyyat təlimində tətbiq olunan metodlar. | 7, səh. 64 |
| 8 | 11.10.2025 | **Şagirdlərin bilik və bacarıqlarının yoxlanılmasının forma, üsul və vasitələri** | 7, səh. 75 |
| 9 | 18.10.2025 | Riyaziyyat təliminin təşkili formaları. **Riyaziyyat dərsinə qoyulan tələblər. Riyaziyyat dərslərinin növləri və quruluşu.** Riyaziyyat dərslərinin planlaşdırılması. **Riyaziyyatdan sinifdənkənar və məktəbdənkənar məşğələlər** | 4, səh. 139 |
| 10 | 18.10.2025 | **Təhsilin məzmununu əks etdirən sənədlər** | 4, səh. 139 |
| 11 | 25.10.2025 | **Riyaziyyat təlimində məsələ və misalların rolu.** Məsələ anlayışı. Sadə və mürəkkəb məsələlər. Hesab məsələlərinin təsnifi. Məsələ həllinin mərhələləri və həlli üsulları. | 8, səh. 6-25 |
| 12 | 25.10.2025 | Tip məsələlər və onların növləri. Məsələlərin hesabi və cəbri üsullarla həlli | 8, səh. 65-156 |
| 13 | 1.11.2025 | **Aralıq imtahanı (I-X mövzular)** | |
| 14 | 1.11.2025 | Məktəb riyaziyyat kursunda "Ədədlər və əməllər" məzmun xəttinin öyrədilməsi | 5, səh. 5 |
| 15 | 8.11.2025 | Bayram | |
| 16 | 8.11.2025 | Bayram | |
| 17 | 15.11.2025 | Məktəb riyaziyyat kursunda xətti, kəsr rasional, modul, kvadrat, irrasional tənliklərin öyrədilməsi metodikası | 4, səh.153 |
| 18 | 15.11.2025 | Məktəb riyaziyyat kursunda xətti, kəsr rasional, modul, kvadrat, irrasional bərabərsizliklərin öyrədilməsi metodikası | 4, səh.153 |
| 19 | 22.11.2025 | Riyaziyyat dərslərində ementar funksiyaların öyrədilməsi metodikası | 2, 9 sinif, səh. 57-74 |

| | | | |
|---|---|---|---|
| 20 | 22.11.2025 | Riyaziyyat dərslərində eynilik çevirmələrin öyrədilməsi metodikası | 4, səh.170 |
| 21 | 29.11.2025 | Stoxastika elementlərinin öyrədilməsi metodikası | 2, 9 sinif, səh. 228 |
| 22 | 29.11.2025 | Riyaziyyat dərslərində həndəsi fiqurların (bucaq, üçbucaq) xassələrinin öyrədilməsi metodikası | 4, səh.203 |
| 23 | 6.12.2025 | Riyaziyyat dərslərində həndəsi fiqurların (dördbucaqlılar) xassələrinin öyrədilməsi metodikası | 4, səh.203 |
| 24 | 6.12.2025 | Riyaziyyat dərslərində həndəsi fiqurların (çoxbucaqlılar) xassələrinin öyrədilməsi metodikası | 4, səh.203 |
| 25 | 13.12.2025 | Riyaziyyat dərslərində çoxüzlülərin (prizma) öyrədilməsi metodikası | 4, səh.206 |
| 26 | 13.12.2025 | Riyaziyyat dərslərində çoxüzlülərin (piramida) öyrədilməsi metodikası | 4, səh.206 |
| 27 | 20.12.2025 | Riyaziyyat dərslərində fırlanma fiqurlarının (silindr) öyrədilməsi metodikası | 4, səh.242 |
| 28 | 20.12.2025 | Riyaziyyat dərslərində fırlanma fiqurlarının (konus, sfera, kürə) öyrədilməsi metodikası | 4, səh.247 |
| 29 | 27.12.2025 | Riyaziyyat dərslərində üstlü funksiyaların, tənlik bə bərabərsizliklərin tədrisi metodikası | 2, 11 sinif, səh.287 |
| 30 | 27.12.2025 | Riyaziyyat dərslərində laqorifmik funksiyaların, tənlik və bərabərsizliklərin tədrisi metodikası | 2, 11 sinif, səh.289 |
| **TBA** | | **Final imtahanı** | |

Bu tədris proqramı fənn haqqında tam məlumatı özündə əks etdirir və hər hansı dəyişiklik barədə öncədən xəbər veriləcək.